# ZİRVƏLƏRƏ UCALMAQ! QARŞI DAĞLAR KİMİ...

**Bu günlərdə Zaqatala rayonu haqqında dərc etdiyim məqalə daha çox bu gözəl diyarın publisistik təsvirini, söhbətini xatırladırdı. "Qızıl güllər" diyarından söz açarkən bunsuz mümkün də deyil.**

Görənlər bilir. Zaqatala təkcə qədim və müasir tikililəri, təbiət gözəllikləri, istirahət guşələri, infrastruktur üstünlükləri ilə fərqlənmir. Bu yerin, bu məkanın özəlliyini, əzəmətini, təbiət və şəhər füsunkarlığını daha böyük sevgi ilə təqdim etmək üçün nə qədər epitet və bənzətmələr də olacaqmış. Ötən məqaləmdə yazdıqlarım sanki yenə də bəs etmir kimi...

...İndi bu yerlərdə yayın ən gözəl çağlarıdır - bütün mənalarda. Bunu nə qələmlə nə də fotolarla olduğu kimi təsvir etmək mümkündür. Gəzib görəsən gərək; o qoxunu, o gözəlliyi duyasan, yaşayasan, lap elə ovsununa düşüb dağlarında, meşələrində, şəhər labirintlərində azıb qalasan gərək. Bu yaraşıqlı, həm də müdrik şəhərlə, onun yurdsevər, vətənsevər sakinləri ilə birlikdə axtarasan bu duyğunun sirrini - sehrini... Onda sən həm də vətəninin, rayonunun şərəfini həmişə uca tutan zəhmətkeş, qonaqpərvər insanları daha çox sevəcəksən. Eyni zamanda rayon rəhbərliyinin idarəetmə sisteminə heyran olacaqsan. Burada bütün məsələlər, görülmüş və görülən işlər, tədbirlər məhz cənab Prezidentin istək və tələbləri səviyyəsindədir. Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə bu amallar uğrunda öz prinsiplərindən dönməyən, həmişə fədakarlıq nümunəsi göstərən bir məktəb, bir örnək mənbəyidir sanki. Bu xoş sözləri, həm burada çalışan məmurlar, həm də tanıdığımız, görüşüb söhbət etdiyimiz sakinlər söyləyirlər.






Zaqatala rayonunda keçirilən 2019-cu ilin birinci yarısının yekunlarına həsr edilmiş hesabat yığıncağında başçı Mübariz Əhmədzadə geniş məruzə ilə çıxış etmişdir. O, çıxışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sosial-iqtisadi sahə ilə bağlı keçirdiyi müşavirədəki çıxışından irəli gələn vəzifələr barədə danışaraq demişdir:

- Prezident iqtisadiyyatımızın bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz, qeyri-neft sənayesinin15,7 faiz artdığını vurğulayaraq demişdir: - "Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə, əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, karbamid zavodu, "SOCAR-Polymer" zavodu istifadəyə verilmişdir və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır."

Müşavirədə ölkə başçısı bu ilin əvvəlində çox böyük sosial paketin təsdiqləndiyini və bu sosial təşəbbüslərin 4 milyondan çox insanı əhatə etdiyini qeyd edərək demişdir : - "Çox önəmli addımlar atılmışdır - minimum əmək haqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əmək haqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosial yönümlü siyasətdir."

2019-2023-cü illəri əhatə edən 4-cü Dövlət Proqramının icrası ilə bağlı rayonumuzda da 17 tədbirin icrası istiqamətində müəyyən işlər görülmüş, 506-ı daimi olmaqla 546 iş yeri açılmışdır ki, bu da öz növbəsində işsizliyin azaldılmasına xidmət göstərmişdir.

2019-cu ilin birinci yarım ili ərzində rayonda 149 milyon 326 min manat məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da keçən illə müqayisədə 24,2 faiz çoxdur. Məhsul istehsalı keçən illə müqayisədə sənayedə 70,6 faiz, kənd təsərrüfatında 1,0 faiz, tikintidə 6,3 faiz, ticarətdə 1,0 faiz, rabitədə 4,0 faiz, nəqliyyatda 1,0 faiz, pərakəndə əmtəə dövriyyəsi 3,8 faiz, pullu xidmətlərin həcmi 5,5 faiz, əsas kapitala yönəldilən investisiyaların həcmi isə 6,7 faiz artmışdır.

Cari ilin hesabat dövründə sahibkarlığın davamlı olaraq inkişaf etdirilməsi və bu sahədə qarşıya çıxan problemlərin həlli istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, güzəştli kreditlərin verilməsi davam etmiş, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən prioritet hesab olunan kənd təsərrüfatı sahələrini maliyyələşdirilməsi məqsədi ilə 4 layihə üzrə 49,0 min manat həcmində güzəştli kredit verilmiş, rayonun iqtisadiyyatına ümumilikdə 1 milyon 549,2 min manat həcmində özəl investisiya qoyulmuşdur ki, onun da 74,5 min manatı xarici, 1474,7 min manatı yerli investisaya olmuşdur.

Cəlb olunan investisiyanın 68,4 faizi xidmət sahələri üzrə obyektlərin, 31,6 faizi sair xidmət sahələrin inkişafı üçün xərc edilmişdir.

Ötən dövrdə rayon büdcəsinə vergi və tədiyyələr üzrə 3,6 milyon manat vəsait daxil olmuş, proqnoz tapşırıqlar 100,2 faiz icra edilmiş, gəlirlərin 35,0 faizi dövlət sektorunun, 65,0 faizi qeyri-dövlət sektorunun payına düşmüş, vergi qanunvericiliyini pozan 12 vergi ödəyicisinə tətbiq edilmiş 357,8 min manat həcmində maliyyə sanksiyanın 177,0 min manatın büdcəyə ödənilməsi təmin edilmişdir.

Cari ilin altı ayı ərzində büdcəyə məcburi dövlət sosial sığorta haqqları üzrə 2 milyon 458 min manat, işsizlikdən sığorta üzrə 87,5 min manat vəsait daxil olmuş, proqnoz tapşırıqlar məcburi dövlət sosial sığorta haqqları üzrə 116,0 faiz, işsizlikdən sığorta üzrə 127,0 faiz icra edilmişdir.

Hesabat dövründə mərkəzləşdirilmiş xərclərdən 2 milyon 104 min manat subsidiya alınmış, büdcə xərcləri 5 milyon 774 min manat və ya 99,4 faiz icra olunmuşdur.

6 ayda 122 pensiya işi təyin edilmiş, 15842 pensiyaçıya, 200 nəfər kimsəsiz qocalara xidmət göstərilmiş, 4956 nəfərə sosial müavinət, 1853 nəfərə Prezident təqaüdü, 173 ailənin 707 üzvünə ünvanlı sosial yardım verilmişdir.

İşsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin təmin edilməsi məqsədi ilə rayonda 2019-cu ilin birinci yarımilində 1387 nəfər işaxtaran kimi qeydiyyata alınmış, onlardan 588 nəfər münasib işlə təmin olunmuş, sosial müdafiəyə daha çox ehtiyacı olan 16 nəfər müəyyən olunmuş kvota yerlərinə göndərilmişdir. "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası olaraq işaxtaran kimi qeydiyyatda olan vətəndaşlardan 144 nəfərin ayrı-ayrılıqda evlərində baxış keçirilərək onlardan 32 nəfəri təlim kurslarına cəlb edilmiş və "Öz biznesinə başla və təkmilləşdir" mövzusunda xüsusi təlimlər keçmiş, qiymətləndirmədən keçdikdən sonra onlara öz biznesinə başlamaq üçün aktivlər- mal-material verilməsi təmin ediləcəkdir...



Məruzədə qeyd olunduğu kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında hazırlanmış "İşsizin DOSTU" proqramı çərçivəsində "DOST İŞ" MMC tərəfindən rayonumuzda haqqı ödənilən ictimai işlərə cəlb olunan 410 nəfərin hər biri ilə əmək müqaviləsi bağlanılması təmin edilmişdir.

Rayonda 2019-cu ilin birinci yarısında 41 milyon 90 min manat kənd təsərrüfatı məhsulları istehsal edilmiş, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 418,4 min manat çoxdur. Rayonda bütün imkanlar səfərbər olunaraq kənd təsərrüfatı işləri aqrotexniki müddətlərdə və keyfiyyətlə icra edilmiş, fermer təsərrüfatlarına güzəştli qaydada 1143,9 ton mineral gübrələr və 913,2 litr pestisidlər satılmışdır. Rayonda cari ilin məhsulu üçün 10990 ha sahədə payızlıq taxıl, o cümlədən 7630 ha sahədə buğda sahələrinə aqrotexniki xidmət göstərilmiş, 28618,20 ha sahədə yazlıq bitkilər olmaqla, 3506 ha sahədə qarğıdalı,120 ha sahədə günəbaxan, 161 ha sahədə qazanlıq gülü, 45 ha sahədə lavanda, 413 ha sahədə paxlalılar, ondan 231 ha sahədə soya, 1567 ha sahədə kartof, 2126 ha sahədə tərəvəz, 4391 ha sahədə yonca, 815 ha sahədə bostan bitkiləri əkilmişdir. Ötən dövr ərzində 23425 ton buğda, 9744 ton arpa, yazlıq əkinlər üzrə 6600,5 ton kartof, 2513 ton tərəvəz, 304 ton bostan məhsulu, 1543 ton meyvə, 18 ton yaşıl çay yarpağı istehsal olunmuşdur.

**Cari ilin I yarısında rayonda mal -qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə damazlıq təsərrüfatları fəaliyyətini davam etdirmiş, 4111 baş ana mal süni mayalanmış, 2193 baş cins bala əldə edilmiş, iri buynuzlu mal-qaranın baş sayı 60477 baş, qoyun-keçilərin baş sayı 170048 baş olmuş, rayonda 4384 ton diri çəkidə ət, 18661 ton süd, 10016 min ədəd yumurta istehsal edilmişdir.**

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**